Tofiq Məlikli-70

Zirvədəki ünvan: vətəndaşlıq, alimlik və ziyalılıq səlahiyyəti



Nəsib NƏBİOĞLU

Keçən əsrin 80-ci illərinin ortalarıdı, Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib, SSRİ Dövlər Xarici Turizm Komitəsində məsul bir vəzifədə çalışırdım. Karl Marks (indiki Oxotnıy ryad) prospekti, ev 16-da yerləşən Komitəyə Azərbaycandan Daimi nümayəndəliyinin arası çox uzaq deyildi. Nümayəndəliyə piyada getmək cəmi 10 dəqiqə vaxt aparırdı. Həmin dövrdə daimi nümayəndəliyimizdə yaxın bir dostum işləyirdi – Vaqif Verdiyevlə hələ tələbə ikən tanış olmuşdum. Özümüz tanış olmuşduq, bizi kimsə tanış eləməmişdi. Həmişə zarafatca deyirdi ki, bəlkə babalarımız qohum olublar, familiyalarımız eynidir. Vaqif müəllim mənim xətrimi çox istəyirdi, mütəmadi olaraq zəngləşirdik. Vaxtaşrı görüşük dərdləşir, bir-birimizin xeyrinə-şərinə yarayırdıq. Mənim heç bir kömək olmadan, öz gücümə, qabiliyyətimə, bacarığıma görə, dayısız-filansız, təkbaşına mötəbər, adlı-sanlı bir təşkilatda işə girməyimə Vaqif müəllim çox sevinirdi. Günlərin birində adəti üzrə mənə zəng elədi: "Nəsib, səni gözləyirəm, gəl, bu gün səni iki həmyerlimizlə tanış eləyəcəm, həm də naharımızı bir yerdə edərik" – dedi.

Mən daimi nümayəndəliyə gəldim. Vaqif müəllimin iş otağında iki nəfərin olduğunu gördüm, şirin-şirin söhbət edirdilər. Vaqif müəllim məni həmyerlilərimizlə tanış etdi. Onlardan biri Elman Araslı, biri isə Tofiq Məlikliydi. Sonralar Elman Araslını bir dəfə də gördüm, yenə də Vaqif müəllimin otağında, deyəsən, Hollandiyadan gəlmişdi və gördüklərindən çox maraqlı söhbətlər edirdi. Mən Elman Araslını bir daha görmədim, sonralar eşitdim ki,Səudiyyə Ərəbistanında işləyir, bir diplomat kimi fəaliyyətini davam etdirir. Amma Tofiq müəllimlə daimi nümayəndəlikdən başlayan tanışlığımız böyük dostluğa çevrilərək, bu gün də davam etməkdədir.

Tofiq müəllimlə yaxından tanışlığım mənə onun şəxsiyyətinə, insanpərvərliyinə və vətənsevərliyinə yaxından bələd olmağa imkan verdi. Onunla hər görüşümdə bu qeyri-adi insanın daxilində mövcud olan səmimiyyətə, səbrə, təmkinə heyran qaldım. Məndə yaranmış heyranlıq tədricən onun şəxsiyyətinə, yaxşı mənada, pərəstiş də yaratdı. Təbii ki, hər bir insan canında, qanında, ruhunda mənsub olduğu millətin, doğduğu torpağın, böyüdüyü məhlənin, dağın, daşın, çölün, düzün, çəmənin, çayın, bulağın, daha nələrin kodlarını, irsi əlamətlərini daşıyır. Bəlkə də elə bunlara görə Tofiqlə sıx ünsiyyət yarada bildik, bəlkə də Vətənimizə, doğma Azərbaycanımıza istək, məhəbbət, bağlılıq bizi bir-birimizə daha yaxınlaşdırdı, daha mehriban elədi. İlk tanışlıqdan sonra müxtəlif vaxtlarda Tofiq müəllimlə görüşürdük. Bəzən də elə olurdu ki, müxtəlif tədbirlərdə, toy, yas məراسimlərində təsadüfən rastlaşırdıq.

Tofiq Məlikli Azərbaycanın dünyaya verdiyi parlaq istedadlı alim, ziyalı, ən tanınmış elm adamlardan biridir. Olduqca mədəni, savadlı, yüksək intellekto malik bir insandır. Ana dilini, rus, fransız, türk, ingilis dillərini gözəl bilir. Özünəməxsus xarakteri, eqoidəsi olan qeyri-adi bir şəxsiyyətdir. Heç kəsə bənzəmir. Heç kəsə oyilmir.

Görkəmli ədəbiyyatşünas alim, dilçi, şair, tərcüməçi, publisist, İctimai xadim, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru Tofiq Məlikli (Məlikov Tofiq Davud oğlu) 1942-ci il avqustun 31-də Şəmkirdə, adlı-sanlı, soyavqustun 31-də Şəmkirdə, adlı-sanlı, soyuq-köklü bir ailədə dünyaya göz açıb. Valideynləri əslən Gəncədən olublar. Atası Gəncənin qədim ziyalılarından olan, o bölgədə sayılıb-seçilən Hacı Məlikliylər tayfasındandır. Körpəliyi Gəncəbasarın kənül açan dağ havasında, büllur çeşmələrin, dağ çaylarının zümzümələri altında keçib. Uşaqlığı ağır günlərə, müharibə illərinə düşüb. Əzab-əziyyətlərə baxmayaraq təhsil almağa, ədəbiyyata, elmə ciddi maraq göstərib. Atası da, anası da həkim olublar. Tofiq yeniyetmə çağlarında ikən ailəsi ilə birlikdə Bakıya köçüb. Orta məktəbi əla qiymətlərlə başa vurub, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olub, oranı qırmızı diplomla bitirib. Tofiq Məlikli Bakıda Azərbaycan Dövlət Universitetində oxuduğu illərdə hazırcavab tələbə kimi tanınıb, müəllimlərinin hörmətini, dostlarının əqidəsini qazanıb. Həmin dövrdə o müxtəlif şəpkilərdə kiçik məqalələriyle mətbuatda çıxıb, Azərbaycan radiosunda reportajlar hazırlayıb, onda yazmaq-yaratmaq həvəsi, eşqi daha da artıb. Təhsilini bitirdikdən sonra bir müddət doğma Bakıda Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində diktor işləyib. Hələ ömrünün gənc çağlarında onun qəlbində el-oba qədri bilmək, vətən sevgisini daim uca tutmaq istəyi yaranıb.

T.Məlikli 1966-cı ildə Moskvaya gəlib, SSRİ EA Şərqşünaslıq İnstitutunun aspiranturasına daxil olub. Moskvada o vaxtlar SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda dünyanın məşhur alimləri, akademikləri dərs deyirdilər. 1968-ci ildə aspiranturanı müvəffəqiyyətlə bitirdikdən sonra 1969-76 illərdə həmin institutda kiçik elmi işçi kimi, 1978-91 illərdə isə böyük elmi işçi vəzifəsində çalışıb. 1991-94-cü illərdə Türkiyədə İstanbul universitetinin ədəbiyyat fakültəsinin professoru olub. Orada "Rus dili və ədəbiyyatı" kafedrasını açaraq ona rəhbərlik edib. Hazırda Moskva Dövlət Linqvistika (Dillər) Universitetinin professorudur. Yenə də elmi-pedaqoji fəaliyyətini davam etdirir. Amma Tofiq müəllimlə daimi nümayəndəlikdən başlayan tanışlığımız böyük dostluğa çevrilərək, bu gün də davam etməkdədir.

Tofiq müəllimlə yaxından tanışlığım mənə onun şəxsiyyətinə, insanpərvərliyinə və vətənsevərliyinə yaxından bələd olmağa imkan verdi. Onunla hər görüşümdə bu qeyri-adi insanın daxilində mövcud olan səmimiyyətə, səbrə, təmkinə heyran qaldım. Məndə yaranmış heyranlıq tədricən onun şəxsiyyətinə, yaxşı mənada, pərəstiş də yaratdı. Təbii ki, hər bir insan canında, qanında, ruhunda mənsub olduğu millətin, doğduğu torpağın, böyüdüyü məhlənin, dağın, daşın, çölün, düzün, çəmənin, çayın, bulağın, daha nələrin kodlarını, irsi əlamətlərini daşıyır. Bəlkə də elə bunlara görə Tofiqlə sıx ünsiyyət yarada bildik, bəlkə də Vətənimizə, doğma Azərbaycanımıza istək, məhəbbət, bağlılıq bizi bir-birimizə daha yaxınlaşdırdı, daha mehriban elədi. İlk tanışlıqdan sonra müxtəlif vaxtlarda Tofiq müəllimlə görüşürdük. Bəzən də elə olurdu ki, müxtəlif tədbirlərdə, toy, yas məراسimlərində təsadüfən rastlaşırdıq.

Tofiq Məlikli Azərbaycanın dünyaya



Zaman səni sıxır, əzir,
Bizdə qismət, bəxt nə gəzir,
Durub baxırsan müntəzir,
Suyun süzülə-süzülə.

Haqqımız olub baş-ayaq,
Bu dərdi necə daşıyaq?
Nə vaxta kimi yaşayaq
Belə əzilə-əzilə?

20 Yanvar hadisələri zamanı, millətimizin o ağır günlərində Azərbaycanın daimi nümayəndəliyində T.Məliklinin ürək yangısıyla çalışması, vətənpərvərliyi, bütün həyəcanlı hərəkətləri indiyə kimi gözümün qabağındadır. Çırtma vursaydın, qanı çıxardı. Bu ağır Yanvar günlərində o, vətənpərvər bir eloğlu kimi, elsevər, milletsevər bir azərbaycanlı kimi özünü irəli verdi. Elə həmin gün Moskvada Sovet imperiyasına qarşı etiraz yürüşünü təşkil edənlərdən, həm də onun əsas iştirakçılarından biri məhz Tofiq Məlikli oldu. Tofiq Azərbaycan tarixinin ən faciəli, ən dəhşətli səhifələrindən olan 20 Yanvar qırğını, Xocalı soyqırımı və Azərbaycan xalqının tarix boyu başına gələn müsibətlərdən bəhs edib danışanda onun vətənə necə dərin məhəbbətə yandığının dönə-dönə şahidi olmuşam. Azərbaycan xalqının başına gələn bütün bu faciələri yaşadığımız ölkənin ictimaiyətina çatdırmaq üçün o, əlində gələni əsirgəmir, azərbaycaqlıların hüquqlarının bərpa ediləsi, soydaşlarımızın maariflərdirilməsi, Azərbaycanın haqq səsini ucalması üçün bir ziyalı kimi müstəsna işlər görür.

Moskvada, ümumiyyətlə Rusiyada o qədər insanlar tanıyıram ki, dünya malına görə vətənini, öz xalqını, heysiyyətini unudub, yalnız və yalnız öz gün-güzəranını fikirləşir, şəxsi mənafeyini millətin, xalqın mənafeyindən üstün tutur. Amma harda oturub-dururlarsa, ziyalılıqdan, vətənpərvərlikdən dəm vururlar. Belələri bir yox, beş universitet də qurtarsalar, akademik, professor olsalar da, əsla ziyalı ola bilməzlər. Ziyalı olmaq diplomla, təhsillə ölçülmür, yüksək təhsil almaqla, adlı-sanlı, gurultulu təşkilatlarda işləməklə deyil. Ziyalı olmaq vətənə, millətinə, xalqına sadiq qalmaqla, millət naminə işlər görməkdir. Mən Tofiq müəllim kimi ziyalı dostumla qürur duyuram, fəxr edirəm. Tofiq müəllim ana yurdumuz, doğma vətənimiz Azərbaycan haqqında söz deməyə başlayanda, Qarabağ adını dilinə gətirəndə onun kövrəldiyini, səsinin titrədiyini, qəhərləndiyini dəfələrlə görmüşəm. Onun ürəyindən nisgilli bir gizilti keçdiyini, göyüm-göyüm göynədiyini hiss etmişəm, göz yaşlarının gilələnərək axdığını, qarşısındakı vərəqləri islatdığını görmüşəm. Onu belə görəndə mənim də ürəyim sinəmdə yanmağa başlayıb. Özümü güclə ələ ala bilmişəm, məni də qəhər boğub. Bu duyğular, bu göz yaşları, bu qəhər Vətən sevgisi deyil, bəs nədir? Bizi qınayanlar da tapılıb, təsəkinlik verənlər də. Özümə təsəlli bildiyim isə hələlik qələmə aldığım bu sətirlərdir:

Bu ərəb ölkədə qəm yeyə-yeyə,
Biri-birimizə həyan olmuşuq.
Bölüşə-bölüşə dərdi, kədəri,
Bu qərib ölkədə üryan olmuşuq.

Qarabağın dərdi aridər bizi,
Qovrulub bişərik el həsrətindən.
Sənin yanağından axan o yaşlar,
Süzülür vətənə məhəbbətindən

Sarsılma, ay Tofiq, kövrəlmə sən də,
Yoxdur ürəyimdə ta tabım mənim.
Şuşam, Kəlbəcərim gedəndən bəri,
Qəm üstə köklənib rübabım mənim.

Sevinə bilmirəm, gülə bilmirəm,
Sevincim quş kimi getdi əlimdən,
Haraya yön alsam, hara üz tutsam,
Qarabağ kəlməsi çıxar dilimdən.

Bu nə sirdir, hələ də anlaya bilmirəm, Tofiqin bütün çıxışlarından nə qədər qüsələnsəm, nə qədər qəhərlənsəm də, sonundə kənlümə bir təsəlli də axır. Bu təsəlli belə bir həmyerlimizin olmağıdır. Tofiqin hər kəlməsində, sözündə, ifadəsində vətən məhəbbətinin ülviliyi duyulur. Məntiqli, alovlu çıxışlarında bütün Azərbaycanın dərdlərini, Qarabağın özünü görürük. Dünənimiz dirilir, yeddi arxa dönənimizlə üz-üzə gəlirik. Para-para olan, dönə-dönə bölünən o taylı-bu taylı Azərbaycanımıza – Zəngəzura, Dərələyəzə, Göyçəyə, Şuşaya, Ağdama, Qubadlıya, Zəngilana, Kəlbəcərə, Laçına, Cəbrayıla qayıdırıq. Duyğularımız ülviləşir, könlümüz bir az da Şuşalaşır, Kəlbəcərləşir.

Ürəyim kədərlə, qəmlə doludur,
Ötüşən illərin arxasındayam!
Siz uzaq olsanız tənha qalaram,
Sizi itirməyin qorxusundayam.

Payımıza düşüb bu nələ hardan,
Ney səsi yandırar, kaman ağladar.
Əlimiz vətənə uzalı qalar,
Bu dərd, kədər bizi yaman ağladar.

Sən elə sevdin ki Azərbaycanı,
Vətən deyə-deyə yaşadın, Tofiq!
Qəlbində, ruhunda, ciyinlərində,
El-oba dərdini daşıdın, Tofiq!

İnsanı bəzən qanadlı quşa bənzədirlər, insan da quş kimi doğma yuvasında, isti ocağında dünyaya göz açır, böyüyür, boy atır, sonra da pərvazlanıb arzularının dalınca qanad açıb uçur. Amma haralara uçsa da, hansı səmtə getsə də, hansı zirvələrə çatsa da, öz isti yuvasına, ata ocağına qayıdacağı anı düşünür. Biz də bu Şimalın soyuq ölkəsindən haçansa vətənə – doğma Azərbaycana dönəcəyimizi dəfələrlə düşünmüşük, götür-qoy eləmişik. Tofiq müəllimlə uzun illər, müəyyən fasilələrlə də olsa, iclaslarda, məراسimlərdə, tədbirlərdə, toplantılarda ünsiyyətdə olmuşam. Dünya azərbaycanlılarının üç qurultayında bərabər iştirak eləmişik. Avropa ölkələrində də bir sıra tədbirlərdə birgə iştirak eləmişik. Yaxşı deyiblər ki, adamı sınamaq istəsən, gərək onunla səfərə çıxasan, yol yoldaşı olasan.Tofiq müəllim bütün sınaqlardan üzüağ, alnıaçıq çıxıb, özünün sədaqətli, etibarlı dost olduğunu çoxdan sübut eləyib.

Tofiq müəllim Azərbaycan dilində təhsil almasına baxmayaraq, rus dilini çox mükəmməl bildiyindən, tez-tez rus poeziyasından, eləcə də müasir rus şairlərinin yaradıcılığından, yeniliklərdən söz salır, hədən türk şairlərinnin şeirlərini əzbər deyir, müqayisələ təhillər aparır. Onun hər sözü, hərəkəti, davranışı, adicə iradı bu sahədə böyük bir mahəbdir. T.Məlikli təkcə Azərbaycanda deyil, keçmiş Sovetlər İttifaqının çox yerlərində, başqa xarici ölkələrdə, ən başlıcası isə Türkiyədə Azərbaycanı layiqincə təmsil edən qüdrətli elm adamı kimi tanınır. Tofiq Məlikli haqqında danışarkən Azərbaycan dilindən söz açmamaq mümkün deyil. Xalqımızın milli varlığı olan ana dilimizə əsl oğul münasibəti bəsləməsi, Azərbaycan dilinin qorunub saxlanması, zənginləşməsi naminə göstərdiyi xidmətlər, onun saflığı uğrunda qətiyyətli addımları, bu bərədə kəsərli fikirləri, təvsiyələri, bu mövzuda yazdığı əsərlər böyük əhəmiyyət daşıyır.

2003-cü il oktyabr ayının 25-də Moskvada Azərbaycan Yazıçılar Birliyinin Moskva Bölməsi yarandı və bölmənin sədri T.Məlikli seçildi. Bölmə Moskvada yaşayan azərbaycanlı qələm sahiblərini bir araya gətirmək, onların yaradıcılıqları ilə yerli cəmiyyəti yaxından tanış etməklə yanaşı bir sıra yaddaqalan tədbirlər də həyata keçirib. Xalq şairləri Səməd Vurğunun, Rəsul Rzanın 100 illik yubileyləri, xalq yazıçısı Mirzə İbrahimovun 100 illiyi, xalq şairləri Bəxtiyar Vahabzadənin, Məmməd Arazın yaradıcılıq gecələri, xalq yazıçısı Anarın, xalq şairi Fikrət Qocanın yubileyi, Aşıq Ələsgərin 190 illiyi, böyük ədib Calil Məmmədquluzadənin, "Molla Nəsrəddin" jurnalına həsr olunmuş tədbirlər, Moskvada yaşayan şair və yazıçılarımızın yubileyləri, yaradıcılıq gecələri məhz T.Məlikllinin rəhbərliyi altında gerçəkləşib. Bu saxladıqlarım həyata keçirdiyimiz tədbirlərin bir qismidir və danılmaz faktlardır.

Mən bu yazımda, təbii ki, T.Məliklinin bioqrafiyası və fəaliyyətilə bağlı, onun tənqidçi, ədəbiyyatşünas, tərcüməçi kimi gördüyü işlər barədə yığcam məlumat verdim. Əslində, professor Tofiq Məlikli haqqında neçə-neçə kitab yazmaq olar, yazılmalıdır və yəqin ki, yazılacaq da. Tofiqi yaxından tanıyan bir insan kimi bu yazını yazmaq məsuliyyəti mənim çiyinlərimə düşdüyü üçün hem sevinirəm, hem də həyəcan keçirirəm. Axı onunla bağlı – əziz dostum, böyük alim və ziyalı, əsl vətəndaş olan Tofiq Məlikli barədə ürəyimdə çox söz, beynimdə çox fikir var, onların hamısını ifadə etməyə çətinlik çəkirəm. Ancaq sağlıq olsun, hələ İrəlidə çox tədbirlər, çox yubileylər var. Fürsət olan kimi Tofiq Məlikli haqqında yeni sözlər demək, yeni yazılar yazmaq niyyətim hər zaman qəlbimdə öz yerini qoruyacaq.

Moskva, fevral 2012

Rafiq YUSİFOĞLU

Qış nəğmələri

QIŞIN BƏYAZ QOŞUNU

Üz-üzə duran dağın
Birisinə qar yağıb,
O birinə dəyməyib
Hələ qışın ayağı.

Elə bil ki, çəkinib
Dərədən adlamağa.
Qalmışq qarsız dağdan
Qarlıya baxa-baxa...

Qışın bəyaz qoşunu
Enməsə də dərəyə,
Elə bil ki, Bakını
Alıb mühasirəyə.

Səbri yoxdu dərənin
O tayında qalmağa.
Meqam gəzir şəhəri
Hücum çəkib almağa...

25.01.2012

AĞ XALATLI HƏKİM QIŞ

Xəstəliyə, azara
Qış gözünü ağardır.
Çirklənmiş təbiətin
Qış üzünü ağardır.

Toz-torpağın üstünə
Göylərdən qar ələyir.
Dağı, düzü bəmbəyaz
Bir örtüyə bələyir.

Saralmış yarpaqları
O dünyaya göndərir.
Təbiəti bəmbəyaz
Bir vərəqə döndərir.

Teslim olub çovğuna
Yazın çiçək qoşunu.
Susub nəğməkar sular, –
Əsir edib qış onu.

İşə salıb şaxtanı
Cumur bostana, bağa.
Çılğın şələləri
Dağda çəkir çarmıxa.

Dağı, daşı zəbt edir,
Saya salmır – hər kimdi!
Yox-yox, o qıldur deyil,
Ağ xalatlı həkimdi.

Hamımızı çovğuna,
Ayaza hazırlayır.
Dünyanı gələn yaza,
Payıza hazırlayır...

28.01.2012

HAVA ÖZÜ ÜŞÜYÜR

Qış yenə at oynadır,
Hər yana qar səpilib.
Tir-tir əsən canlılar
Künc bucağa təpilib.

Külək qılınc tək kəsir,
Hava yaman soyuqdu.
Hamısı buza dönüb,
Elə bil heç su yoxdu.

Bəmbəyaz kürk geyinən
Dağlar nələr düşünür?
Hava bizi üşütmür,
Hava özü üşüyür...

Qar üstündə gəzdikcə,
Buğlanır nəfəsimiz.
Bizi qoymur üşüyək
Yaşamaq həvəsimiz.

Soyuqdan əsən hava
O yan, bu yana axır.
Girib, ciyərimizdə
İsinib, çölə çıxır...

29.01.2012

NƏ DEYƏSƏN

Fikrini min yerə çəkən
Gümanlara nə deyəsən?
Gözümüzü kor eləyən
Dumanlara nə deyəsən?!

Arama, məni arama! –
Bu iş yarəşır harama?
Halalı qoyub, harama
Cumanlara nə deyəsən?

Gözümü göynədir tüstü,
Bu şaxtanın neyi pisdi?
Yaydan soyuq, qışdan isti
Umanlara nə deyəsən?!

04.02.2012

XƏZƏRİ DONDURAN QIŞ

Qar çovğunu, kor duman
Əsir edib günəşi.
Bu il şahlıq taxtına
Qış möhkəmcə oyləşib.

Elə bil ki, suların
Gözünə zülmət çöküb.
O, şaxta qoşunuyla
Dənizə hücüm çəkir.

Bumbuz, bəyaz qarını
Ora-bura sovurur.
Kükrəyən dalğaların
Qoluna qandal vurur.

O, suları özünün
Dustağına döndərir.
Bəmbəyaz dalğaları
Buz dağına döndərir.

Çox olub şaxtasıyla
Bağları yandıran qış,
İlk dəfədir görürəm
Xəzəri donduran qış...

05.02.2012

BİR DƏ GÖRÜRSƏN

Bir də görürsən
dəniz qabarır,
kükrəyən sular
şəhərləri, kəndləri
kibrit çöpü kimi aparır...
Bir də görürsən
adicə bir zəlzələ
Adamların ürəyinə
salır qorxu, vəlvələ.
İnsan məcburdu
ulu yaradana
könül bağlamağa.
İnsan acizdi
çaxan şimşəyin,
yağan yağışın, qarın
qarşısını almağa.
Adamlar bir dalda
yer axtarırlar
başlarını topməyə.
Adamlar gözlərini döyə-döyə
baxırlar dörd tərəfə.
Ateistlər məqam gəzirlər
Allahın əlindən,
əməyindən öpməyə –
Ancaq onlar layiqdilərmi
bu şərəfə?!

08.02.2012

QIŞ VƏ DƏNİZ

Dayanmışam sahildə,
Uzanır qarlı düzlər.
Dənizin donduğuna
İnana bilmir gözlər...

Mənim üşüyən qəlbim
Çox çətin ki, isinə.
Elə bil mavi Xəzər
Dönüb qar dənizinə...

Səpələnən bəyaz qar
Elə bil duza dönüb.
Şahə qalxan, kükrəyən
Dalğalar buza dönüb.

Sahildə mən özüm də
Buz heykələ dönmüşəm.
İnanmıram gözümə,
Heyrətimdən donmuşam.

Ağlasam, quduz şaxta
Kirpiyimdən buz asar.
Xəzərdə aramıza
Qış çəkibdir buz hasar.

Şaxta dördəmə çapır
Minib köhlən atına.
Qış dənizi alıbdır
Dizlərinin altına...

12.02.2012